# PREZİDENT İLHAM ƏLİYEVİN UĞURLU SİYASƏTİ TƏBİİ SƏRVƏTLƏRİN TALANMASINA VƏ EKOLOJİ TERRORA SON QOYDU

**Qasım Hacıyev**

*AMEA-nın Qafqazşünaslıq İnstitutu, Bakı*
*gasimh@mail.ru*

Ermənistan hərbi qüvvələrinin vaxtilə işğal etdiyi və separatçı rejimin idarə etdiyi "Qarabağ Respublikası"nın yaratdığı terror şəbəkəsi təbii sərvətlərin qanunsuz istismarı kimi cinayətkar fəaliyyətlə məşğul olmuşdur.

Yuxarı (Dağlıq) Qarabağın Azərbaycanla hərtərəfli bağlı olduğunu bildikləri halda DQMV-nin iqtisadi cəhətdən Ermənistana daha yaxın olduğunu sübut etməyə çalışsalar da, Ermənistanın iqtisadi mərkəzlərdən kifayət qədər uzaqda yerləşməsi keçmiş DQMV-nin nəqliyyat-kommunikasiya baxımından vəziyyətinin - bu məsafənin uzaqlığı ilə bərabər, təbii-coğrafi baxımdan əlverişsizliyi bu əlaqələri çətinləşdirir, səmərəsini heçə endirirdi.

AR Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Birinci hesabatına əsasən qoruqlar və yasaqlıqlar Bəsitçay Dövlət Qoruğu, Qaragöl Dövlət Qoruğu, Laçın Dövlət Yasaqlığı, Qubadlı Dövlət Yasaqlığı, Arazboyu yasaqlığı, Daşaltı yasaqlığı 27 il işğal altında olmuş və qoruq rejimi ermənilər tərəfindən dağıdılmışdır. İşğal olunmuş ərazilərdə təbii sərvətlərin talanması intensiv xarakter almış, ermənilər Yuxarı (Dağlıq) Qarabağ bölgəsi ilə yanaşı, işğal olunmuş Laçın, Kəlbəcər, Zəngilan, Qubadlı, Cəbrayıl, Füzuli və Ağdam rayonlarında da təbii sərvətlərin istismarını davam etdirmişdir. İşğal olunmuş ərazilərdə təbii sərvətlərin talan edilməsi və qanunsuz istismarı işğaldan sonrakı illərdə daha intensiv şəkil almışdır. Qarabağda azərbaycanlılara məxsus evlərin, qəbirlərin, mədəniyyət abidələrinin dağıdılması və s. barədə Azərbaycan Respublikası MTN-də ətraflı məlumatlar vardır. Qondarma "Dağlıq Qarabağ Respublikası"nda erməni separatçılarının həyata keçirdikləri terror, təcavüzkar separatizm, narkotik maddələrin qanunsuz dövriyyəsi, bölgənin təbii sərvətlərinin talan edilməsi ilə davam etdirilmişdir.

Ermənistanın iqtisadiyyatını müasir tələblərə uyğunlaşdırmaq üçün təbii resurs və insan ehtiyatlarının effektli istismarı mümkün olmadığı halda Yuxarı (Dağlıq) Qarabağdakı sosial problemlərin ağırlığı altında Ermənistanın siyasəti uğursuzluğa düçar oldu.

Dünya iqtisadiyyatına inteqrasiya etmək üçün Ermənistan da öz payını verməli idi. Bu ölkədə təbii resurslar isə demək olar ki, yox dərəcəsində olduğu üçün xarici investisiya cəlb etmək problemi ilə qarşılaşmışdı. Ermənistanın yerləşdiyi coğrafiya, regionda yaratdığı əsassız ərazi iddiaları ilə bağlı problemlər, tranzit imkanından istifadən məhrum olması və təbii sərvətlərə, xüsusilə də enerji mənbələrinə malik olmaması onu böhran vəziyyətinə saldı.

Qonşu ölkələrin torpaqları hesabına yaradılmış Ermənistan dövlətinin böyük təbii ehtiyatlardan, o cümlədən böyük insan ehtiyatlarından məhrum olduğu halda, Azərbaycan Respublikasının torpaqlarını işğal edərək bu torpaqların təbii ehtiyatlarını, maddi sərvətlərini mənimsəməklə inkişafa cəhd etməsi uğursuz oldu.

Avropa ittifaqının başlıca enerji-kommunikasiya layihələrinin bölgədə cəmləndiyi, Azərbaycan Respublikasının təbii ehtiyatlar baxımından zəngin olduğu, ölkəyə investisiya qoyuluşunun genişləndirildiyi halda təbii ehtiyat baxımından kasad olan Ermənistan Rusiya Fedrasiyasının Avrasiyaçı siyasətində öz yerini müəyyən etməyə çalışırdı ki, bu da onun bölgədəki irimiqyaslı layihələrdən kənarda qalmasını şərtləndirən amilə çevrildi.

Ermənistan hərbi qüvvələrinin işğal altında saxladığı Azərbaycan Respublikasının təbii ehtiyatlarına və ekologiyasına vurulan ziyan milyardlarla ölçülür. Çayların çirkləndirilməsi, əkinəyaralı torpaqların su ilə təchizində yaradılan süni maneələr, otlaq sahələrin yandırılması, meşələrin qırılması Azərbaycanın flora və faunasına külli miqdarda ziyan vurmuşdur.

Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinin Prezident, Silahlı qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi nəticəsində azad edilməsi ölkəmizin ərazi bütövlüyünü bərpa etməklə bərabər, Azərbaycanın təbii sərvətlərinin talanmasına, ekologiyasına zərbə vurmasına birdəfəlik son qoydu.